MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVIII buraxılış, Bakı, 2025
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLVIII выпуск, Баку, 2025
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLVIII edition, Baku, 2025

**UOT 73**
**ORCID: 0009-0007-2739-9604**
**https://doi.org/10.52094/HYAE7237**

**Sübhan Məmmədov Əli oğlu**
**Azərbaycan Rəssamlıq Akademiyası**
**doktorant**
**subhan872@mail.ru**

# AĞA ƏLİ İBRAHİMOVUN PORTRET JANRLI ƏSƏRLƏRİNDƏ REALLIĞIN VƏ RƏMZİLİYİN SİNTEZİ

**Xülasə.** Ağa Əli İbrahimovun portret yaradıcılığı realist müşahidə ilə rəmzi məna arasında qurulan qarşılıqlı əlaqəyə əsaslanır və bu əlaqə vasitəsilə obrazın həm xarici, həm də daxili strukturu üzə çıxarılır. Rəssamın yaratdığı qocalıq portretlərində həyatın ağırlığı, zamanın fiziki izləri və sükutun içində gizlənmiş düşüncə qatları faktura və sərt forma həlli ilə verilərkən, gənc və uşaq portretlərində daha çox psixoloji narahatlıq, daxili gərginlik, təəccüb və emosional açılış sezilir. Kompozisiya həllərində fon və fiqur münasibətləri tez-tez rəmzi məna daşıyır. Fonun qeyri-müəyyənliyi, ritmik strukturu və ya tünd tonlarda işlənməsi fiqurun psixoloji vəziyyətini tamamlayan bədii mühit yaradır.

Rəssam avtoportretlərində isə insanın özünüdərk prosesini bədii dildə təqdim edir. Burada şam, kəllə sümüyü kimi predmetlərin tətbiqi həyatın keçiciliyini xatırladan rəmzlər yaratmaqla realist təsviri daha geniş fəlsəfi kontekstə daşıyır. Əllərin qabardılmış plastikasında əmək, zəhmət, yorğunluq və insan ömrünün fiziki tərəfləri cəmlənir. Gənc qadın və uşaq portretlərində isə forma bəzən stilizasiya olunur, bu isə reallığın məkanı ilə emosional məkan arasında körpü yaradır.

Nəticə etibarilə, Ağa Əli İbrahimovun portret janrında yaratdığı əsərlər bədii dilin həm təsviri, həm də mənalandırıcı imkanlarını birləşdirir. Onun portretləri reallığın dəqiq müşahidəsini simvolik ümumiləşdirmə ilə əlaqələndirərək insanın daxili dünyasını bədii dildə oxunaqlı edir. Bu portretlər Azərbaycan təsviri sənətində reallıq və rəmzilik sintezinin uğurlu və orijinal nümunələri kimi diqqət çəkir.

**Açar sözlər:** Ağa Əli İbrahimov, portret janrı, reallıq, rəmzilik, sintez, rəngkarlıq

**Giriş.** Ağa Əli İbrahimovun portret yaradıcılığında reallığın və rəmziliyin sintezi onun bədii düşüncəsinin əsas istiqamətlərindən birini təşkil edir. Rəssam klassik portret təsvirinə sədaqətini qorumaqla yanaşı, insan simasında zamanın izlərini, daxili gərginliyi, mənəvi gərdişi və həyatın yığcam fəlsəfəsini ifadə edən rəmzi çalarları paralel şəkildə inkişaf etdirir. O, portret janrını yalnız fərdin xarici səciyyəsini əks etdirən bir təsvir kimi deyil, həyatın müxtəlif mərhələlərinin, yaşanmış talelərin və zamanın bədii qatlarda cəmlənmiş izlərinin təhlil edildiği bir sahə kimi dərk etmişdir. Bu baxımdan, təqdim olunan əsərlər onun realist müşahidə ilə simvolik assosiasiyalar arasında qurduğu əlaqəni aydın şəkildə nümayiş etdirir.

**Əsas hissə.** Ağa Əli İbrahimovun tədqiqata cəlb olunan əsərləri onun portret janrına yanaşmasını kompleks şəkildə əks etdirir. Burada yaşlı və gənc obrazları, qadın və uşaq təsvirləri, eləcə də avtoportretlər vasitəsilə insan ömrünün müxtəlif mərhələləri bədii dildə ümumiləşdirilir. Başqa sözlə desək, müxtəlif yaş təbəqələrinə həsr olunmuş bu əsərlərin hər biri Ağa Əli İbrahimovun portret janrına yanaşmasının çoxsəviyyəli strukturunu tamamlayır. Rəssam insan simasında yalnız xarici cizgiləri deyil, daxili hal və emosional vəziyyətləri də araşdırır və bu tədqiqi rəmzi elementlərlə zənginləşdirir. Uşaq simasının geniş gözlərindəki təəccüb, gənc qadının sakit pozasındakı düşüncə, tənha fiqurun kövrək ifadəsindəki yorğunluq və yaşlı qadının çökmüş əllərindəki həyat izləri rəssamın reallıqla rəmziliyi bir-birinə bağlamaq bacarığının nəticəsidir. Bu portretlər insanın fərdi taleyini ümumi bəşəri duyğuların daşıyıcısına çevirir və real müşahidə ilə bədii ümumiləşdirmənin harmoniyasını təmin edir.

*“Ağəli İbrahimovun bədii yaradıcılığının əsas özəlliklərindən biri onun kompozisiya və rəng duyumunda mükəmməl tarazlıq tapmasıdır. Onun əsərlərində bəzən sakit və poetik ab-hava, bəzən isə dinamik və emosional ifadə gücü hiss olunur. İbrahimov portret, peyzaj və natyurmort janrında fərqli bədii tapıntıları ilə seçilib. Xüsusilə, insan portretlərində onun psixoloji müşahidəçiliyi, obrazların daxili aləmini duyma və fərdi xüsusiyyətləri ön plana çıxarma bacarığı diqqəti cəlb edir” (4).*

Rəssam hər bir obrazın xarakterini faktura və rəng ritmi ilə açır, daxili psixoloji vəziyyəti fonun plastik quruluşu və kompozisiya həlli ilə əlaqələndirir. Nəticədə hər bir portret insan haqqında fərdi hekayə ilə yanaşı, zaman və həyat haqqında daha geniş bədii-fəlsəfi məna daşıyır.

Ağa Əli İbrahimovun "Kişi portreti" (1962) onun erkən dövrünün xüsusiyyətlərini qoruyur və insan xarakterinin plastik həllinə diqqəti ilə seçilir. Burada forma daha konstruktivdir, faktura nisbətən daha sakitdir, rəng münasibətləri isə təmkinli tonda qurulmuşdur. Bununla belə, fiqurun pozası, bir qədər yana çevrilmiş başı və sıxılmış əlləri daxili gərginliyi ifadə edir. Rəssam modeli yalnız təsvir etmir, onu öz taleyi ilə birlikdə düşünməyə vadar edən vəziyyətdə təqdim edir. Bu portretdə reallıq daha güclüdür, lakin rəmzi mənalandırma sifətin dərin kölgələrində və qaranlıq fonla fiqur arasındakı sərt kontrastda hiss olunur.

Rəssamın "Qoca kişi portreti" yaşlı insanın üz cizgilərində həyatın yüklərini fiziki və mənəvi təsəvvürlər səviyyəsində birləşdirən təsir gücünə malikdir. Onun qalın fakturalı boya işləmə üslubu burada həm reallığın sərtliyini, həm də keçmişin təbəqələr şəklində çökmüş izlərini ifadə edir. Qocanın çökmüş yanaqları, dərinin bürüşmüş fakturası, gözlərin dərinliyi yalnız fizioloji qocalığın deyil, zamanın insan üzərində apardığı uzunmüddətli təsirinin bədii ekvivalentinə çevrilir. Fonun qeyri-müəyyən, sanki dağılışmış plastikasına qarşı fiqurun sərt konturları qocalığın həyatla təmasdan getdikcə geri çəkildiyini simvolizə edir. Rəssam burada insan simasında taleyin yığcam hekayəsini canlandırır; portret həm realist müşahidəyə, həm də rəmzi ifadəyə əsaslanır. Digər "Qoca kişi portreti" profil təsviri üzərində qurulmuşdur və fiqurun zamanla üz-üzə qalmasını rəmzi səviyyəyə qaldırır. Burada yaşlı insanın başının arxasında uzanan açıq fon pəncərə işığını xatırladır. Bu işıqlandırma insan ömrünün son mərhələsində açılan daxili aydınlığı simvolizə edir. Sifətin sərt konturları, dərinin üzərində yığılmış qırışların güclü plastika ilə verilməsi reallığın kəskin müşahidəsinə əsaslanır, lakin quruluş etibarilə fiqurun işığa doğru yönəlməsi rəmzi məna daşıyır. Fiqurun az qala relyefə çevrilmiş fakturanı zamanın insan üzərində qoyduğu dərin izləri hiss etdirir.

Ağa Əli İbrahimovun "Oğlan portreti" adlı əsəri onun portret janrında başqa bir istiqamətini təmsil edir. Burada uşağın qaməti və baxışındakı cazibə realist təsvirə əsaslanır, lakin kompozisiyanın ətrafını əhatə edən bükülü formalar, dinamik xətt ritmləri və dekorativ fon reallığın çərçivələrini genişləndirir. Uşağın iri gözləri, yüngülcə sərt cizgilərlə çəkilmiş siması onun yaşına nisbətən daha dərin düşüncə və emosional təcrübə daşıdığını bildirən rəmzi çalara malikdir. Fonun dalğavari strukturu isə uşağın psixoloji dünyasının qeyri-sabitlik və daxili enerjiylə yüklü olduğunu göstərir. Burada reallıqla

rəmzilik bir-birini tamamlayır. Belə ki, portret həm xarakter tədqiqidir, həm də uşaqlıq dövrünün psixoloji dinamikasının bədii ümumiləşməsidir.

Rəssamın portretləri arasında müxtəlif dövrlərdə çəkilmiş avtoportretləri də özünəməxsus bədii həlli ilə seçilir. Məsələn, 1975-ci ildə çəkilmiş "Avtoportret" rəssamın özünüifadə imkanlarını sınağa çəkdiyi əsər kimi daha mürəkkəb rəmzi məna yükünə malikdir.



**Ağa Əli İbrahimov. "Avtoportret". 1975.**

Kompozisiyanın mərkəzində öz əksi ilə üz-üzə qalan fiqur bir çərçivənin içindən baxır, bu isə portretin yalnız özünütəsvir deyil, həm də özünütanıma aktına çevrildiyini göstərir. Kətan üzərində qaranlıq tonların üstünlüyü, işığın yalnız bəzi sahələri seçməsi insanın daxili aləminin qaranlıq və işıqlı tərəflər arasında bölündüyünü rəmzi şəkildə göstərir. Masanın üzərindəki kəllə sümüyü həyatın faniliyini, şam isə zamanın tükənməsini bildirən klassik rəmzlər kimi çıxış edir. Lakin rəssam bu rəmzləri akademik təsvir ənənəsindən fərqli olaraq daha dramatik, emosional gərginlik yaradan plastik dil ilə təqdim edir. Bu mənada avtoportret rəssamın zaman, insan və sənət haqqındakı düşüncələrinin yığcam fəlsəfi modelinə çevrilir.

Rəssamın digər avtoportreti isə işıq və qaranlığın kəskin ziddiyyətinə əsaslanan həlli ilə seçilir. Fiqurun yalnız bir hissəsinin işıqlandırılması, digər hissənin qaranlığa qərq edilməsi insanın özünü dərk prosesinin natamamlığını

və daxili gərginliyini işarə edir. Yüngül şəkildə təhrif olunmuş forma, plastikanın sərtliyi və konturların kəskinliyi burada həm psixoloji gərginlik yaradır, həm də reallığın rəmzi təhrif səviyyəsinə yüksəldiyini göstərir. Üzün ifadəsi melanxolikdir, baxış introvert xarakter daşıyır; bu isə portretin psixoloji dərinlik üzərində qurulan strukturunu daha da gücləndirir.

Ümumilikdə bu əsərlərin ümumi xüsusiyyəti reallığın təsviri həqiqətinə sadiqliklə rəmzi məzmunun paralel inkişaf etdirilməsidir. Ağa Əli İbrahimov insan portretini yalnız xarakter, temperament və fiziki quruluşun öyrənilməsi kimi dərk etmir. Eyni zamanda onun üçün portret, həm də zamanla insan arasında dialoqun bədii təcəssümüdür. Bu baxımdan portretlərdə faktura təkcə texniki üsul deyil, talenin yığılmış qatlarının təsviri funksiyasını daşıyan xüsusi bədii dildir. Rəssamın kəskin işıq-kölgə həlli, koloristik gərginliyi, formanın təsiredici sərtliyi portretlərin həm realist, həm də rəmzi səviyyəsini müəyyən edən əsas amillərdir. O, insanın daxili dünyasını ifadə etmək üçün təsvirin sərtliyindən, qaranlığın psixoloji dərinliyindən və işığın məhdud, lakin hədəflənmiş istifadəsindən məharətlə yararlanır. Bununla portret janrında adi təsviri çərçivələr genişlənir və insanın həyati təcrübəsinin fəlsəfi məzmunu ön plana keçir. Rəssamın portretləri həm həyatın konkretliyini, həm də insan taleyinə məxsus simvolik rəmzləri özündə birləşdirən bütöv bədii düşüncə modelinə çevrilir.

Ağa Əli İbrahimovun portret janrına dair digər nümunələri də onun realist təsvir prinsipini daxili psixoloji və rəmzi mənalarla birləşdirmə istiqamətində apardığı ardıcıl axtarışları nümayiş etdirir. “Qız portreti” uşaq simasının ön plana çıxarıldığı, lakin sırf uşaq portreti çərçivəsindən kənara çıxan zəngin təsir gücünə malikdir. Rəssam burada gözlərin həddindən artıq böyüdülmüş plastikasını, dərin işıq-kölgə münasibətlərini və üz cizgilərinin sərt konturla qeyd olunmasını insanın ilk baxışda sezilməyən, lakin daxildə cərəyan edən gərginlik və narahatlıq hissləri ilə əlaqələndirir. Kolorit sarımtıl-qəhvəyi tonlar üzərində qurulmuş və simanın bərkimiş plastikasında uşaqlıqdan çox həyatın erkən müşahidəsinin, həm də emosional yüklənmənin izləri görünür. Obrazın fonla demək olar ki, birləşməsi reallığın sərhədlərini zəiflədir və portreti rəmzi ümumiləşmə səviyyəsinə yüksəldir. Bu portret, reallıqla bağlı müşahidələrin fonunda insan taleyinin başlanğıc nöqtəsindəki həyəcan və axtarış hissinin bədii modelini yaradır.

Daha genişhəcmli "Qız portreti" əsəri rəssamın qadın fiquruna poetik yanaşma tərzini əks etdirir. Burada fiqurun qırmızı geyimi kompozisiyanın emosional mərkəzinə çevrilir və rəngin parlaq dinamikası ilə fiqurun sakit, düşüncəli pozası arasında ziddiyyət yaranır. Bu ziddiyyət həm xarakteri dərinləşdirir, həm də portretə rəmzi məna qatır. Qadının qara saçlarının dalğavari plastikasına qarşı onun üzündəki solğun rəng həlli gəncliyin və təmkinli düşüncənin paralel təsvirinə işarə edir. Diz üstə yerləşdirilmiş qara pişik təsviri sırf məişət detalı kimi deyil, həm fiqurun daxili qapalılığını, həm də müşahidə olunan ehtiyatkarlığı ifadə edən rəmz kimi oxunur. Əllərin incə, uzun və bir qədər stilizə olunmuş plastikasında qadınlıq duyumundan çox, fiqurun diqqətini öz daxilinə yönəltməsi sezilir. Rəssam bu portretdə dekorativliklə psixoloji dərinlik arasında balans yaradır və reallığı rəmzi ümumiləşdirmə ilə tamamlayır.

Ağa Əli İbrahimovun portret yaradıcılığında maraqlı bədii həlli ilə seçilən əsərlərindən biri də "Yalnızlıq" əsəridir. Bu əsərdə fiqur təkcə portret obyekti deyil, həm də emosional vəziyyətin daşıyıcısına çevrilir. Burada üzün ağappaq tonlarda işlənməsi, gözlərin iri və yorğun plastikasının qabardılması, başın əyilmiş vəziyyəti və dodaqların sıxılması insanın daxili çəkinmə, düşüncəyə qapanma və yorğunluq hisslərini gücləndirir. Fonun dekorativ şəkildə qurulmuş ritmik qırmızı-qara elementləri fiqurun psixoloji vəziyyəti ilə kontrast yaradır və reallıqla fikrin məkanını bir-birindən ayırır. Rəssam fiquru sanki bu ritmik fonun içindən çıxarır və eyni zamanda ona qaytarır. Beləliklə, fiqur həm real portret, həm də insanın tənhalıq halının rəmzi təsvirinə çevrilir. Burada fakturanın sərtliyi və rəng münasibətlərinin kəskinliyi duyğusal gərginliyi daha da artırır.

Yaşlı qadın təsvir edilən portretdə isə Ağa Əli İbrahimovun reallıq və rəmzilik arasında yaratdığı dialoq daha təmkinli, lakin bir o qədər də təsirli şəkildə davam edir. Qadının oturuşundakı sakitlik, əllərinin bir-birinə keçmiş vəziyyəti, simadakı yorğunluq və qocalıq izləri yalnız real fiziki xüsusiyyətləri əks etdirmir, burada həyatın son dövrünün yığcam fəlsəfəsi ifadə olunur. Tünd fon fiquru həm məkan daxilində təcrid edir, həm də onun yaşantılarını daha kəskin şəkildə ön plana çıxarır. Simanın işıqlandırılması yalnız müəyyən sahələri seçir, bu isə fiqurun daxili aləminin yalnız bir qisminin görünən, digər qisminin qaranlıqda qalan tərəfini işarə edir. Qadının baş örtüyü və geyimi isə heç bir etnoqrafik çalara çevrilmədən, sadəcə həyatın zəhmət və təvazökarlıqla yoğurulmuş dövrünün bədii ümumiləşdirilmiş ifadəsinə çevrilir. Burada əl

fakturasının həddindən artıq qabardılması həyatın fiziki ağırlığının insan bədənində yığılmış izlərini göstərir.

**Nəticə.** Ağa Əli İbrahimovun portret janrında apardığı yaradıcılıq axtarışları reallığın təbii təsvirini simvolik məna qatları ilə birləşdirən özünəməxsus bədii sistem yaradır. Onun portretlərində insan simasının konkret fiziki xüsusiyyətləri ilə yanaşı, daxili vəziyyətlər, emosional gərginliklər və psixoloji həyəcanlar xüsusi diqqətlə araşdırılır. Rəssam fakturanın qalınlığı, rənglərin gərgin münasibəti və işıq-kölgə modelləşdirilməsi vasitəsilə obrazın həyat təcrübəsini plastika üzərində görünən qatlara çevirir. Bu struktur reallığın sərt müşahidəsindən doğur, lakin bədii nəticə simvolik ümumiləşməyə doğru yönəlir.

Rəssamın portretlərinin hər birində sadəcə insan təsviri deyil, həyatın müəyyən mərhələsinin bədii xronikası təqdim olunur. Qocalıq obrazları zamanın insan üzərində apardığı işləməni, gənclik portretləri daxili axtarış və emosional həssaslığı, uşaq fiqurları isə həyatın başlanğıc mərhələsində toplanan müşahidə və həyəcanı göstərir. Rəssam bu fərqli yaş dövrlərini ümumiləşdirən bədii yanaşma yaratmaqla portret janrının imkanlarını genişləndirir və insanın taleyini psixoloji, emosional və rəmzi çalarlarla birləşdirən çoxqatlı sistem formalaşdırır.

Beləliklə, Ağa Əli İbrahimovun portretləri həm realist təsvirin təmkininə, həm də rəmzi düşüncənin dərinliyinə əsaslanan unikal yaradıcılıq modelini təcəssüm etdirir. Bu model rəssamın insan haqqında düşüncələrini, həyat fəlsəfəsini və zamanla bağlı müşahidələrini vahid bədii struktura çevirən konseptual yanaşmaya çevrilir.

## Ədəbiyyat siyahısı:

1. Axundzadə L. (2004). Ağa Əli. Kataloq. Bakı: [n.y]
2. Əfəndi R. (2007). Azərbaycan incəsənəti. Bakı: “Şərq-Qərb”.
3. Məmmədbəyov N. (2021). Dahi fırça ustası. Poema. Bakı: “Səda”
4. Ağəli İbrahimov: Həyatı, Fəaliyyəti. URL: https://qebulol.az/ageli-ibrahimov/

**Subhan Mammadov Ali oghlu**

**Synthesis of Reality and Symbolism in Agha Ali Ibrahimov's Genre Portraits**

**Summary:** Agha Ali Ibrahimov's portrait work is based on the interaction between realistic observation and symbolic meaning, and through this connection, both the external and internal structures of the image are revealed. In the portraits of the elderly created by the artist, the weight of life, the physical traces of time, and the layers of thought hidden in silence are conveyed through texture and rigid form, while in the portraits of young people and children, more psychological anxiety, internal tension, surprise, and emotional opening are felt. In compositional solutions, the relationship between the background and the figure often carries a symbolic meaning. The uncertainty of the background, its rhythmic structure and dark tones create an artistic environment that complements the psychological state of the figure.

In his self-portraits, the artist presents the process of human self-awareness in artistic language. Here, the use of objects such as candles and skulls creates symbols reminiscent of the transiency of life, bringing realistic imagery into a broader philosophical context. The raised plasticity of the hands concentrates on labor, toil, fatigue, and the physical aspects of human life. In the portraits of young women and children, the form is sometimes stylized, which creates a bridge between the space of reality and the emotional space. Consequently, the works created by Agha Ali Ibrahimov in the portrait genre combine both the descriptive and semantic possibilities of artistic language. His portraits combine precise observation of reality with symbolic generalization, making the inner world of a person readable in artistic language. These portraits stand out as successful and original examples of the synthesis of reality and symbolism in Azerbaijani fine art.

**Key words:** Agha Ali Ibrahimov, portrait genre, reality, symbolism, synthesis, painting

**Субхан Мамедов Али оглы**

**Синтез реальности и символизма в жанровых портретах Ага Али Ибрагимова**

**Резюме.** Портретная живопись Ага Али Ибрагимова основана на взаимодействии реалистического наблюдения и символического смысла, и благодаря этой связи раскрывается как внешняя, так и внутренняя

структура изображения. В портретах пожилых людей, созданных художником, тяжесть жизни, физические следы времени и скрытые в молчании слои мыслей передаются через текстуру и жесткую форму, в то время как в портретах молодежи и детей ощущаются больше психологической тревоги, внутреннего напряжения, удивления и эмоциональной открытости. В композиционных решениях взаимосвязь между фоном и фигурой часто несет символический смысл. Неопределенность фона, его ритмическая структура или использование темных тонов создают художественную среду, дополняющую психологическое состояние фигуры.

В своих автопортретах художник представляет процесс самопознания человека на художественном языке. Здесь использование таких предметов, как свечи и черепа, создает символы, напоминающие о быстротечности жизни, помещая реалистичные образы в более широкий философский контекст. Рельефная пластичность рук концентрирует внимание на труде, изнурительной работе, усталости и физических аспектах человеческой жизни. В портретах молодых женщин и детей форма иногда стилизована, что создает мост между пространством реальности и эмоциональным пространством.

Таким образом, работы Аги Али Ибрагимова в жанре портрета сочетают в себе как описательные, так и смысловые возможности художественного языка. Его портреты сочетают точное наблюдение за реальностью с символическим обобщением, делая внутренний мир человека понятным на языке искусства. Эти портреты выделяются как успешные и оригинальные примеры синтеза реальности и символизма в азербайджанском изобразительном искусстве.

**Ключевые слова:** Ага Али Ибрагимов, жанр портрета, реальность, символизм, синтез, живопись

Məqalənin redaksiyaya daxilolma tarixi: 10.12.2025
Məqalənin çapa qəbul olunma tarixi: 12.12.2025